# HÜSEYNOV ELŞƏN İBRAHİM OĞLU



Hüseynov Elşən 30 iyun 1976-cı ildə Saatlı rayonunun Qıraqlı kəndində dünyaya gəlmişdir. 1993-cü ildə kənd orta məktəbini bitirmişdir. Bir il təsərrüfatla məşğul olmuşdur. 1994-cü ildə Saatlı rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. Elşən Hüseynov 1995-ci il martın 17-də qeyri-qanuni silahlanmış, dövlət çevirilişinə cəhd edən bir qrup qiyamçı ilə qarşıdurmada qəfil gülləyə tuş gələrək həlak olmuşdur. Saatlı rayonunun Qıraqlı kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Hüseynov Elşən İbrahim oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Saatlı rayon mərkəzi xəstəxanası onun adını daşıyır.